# İsmayıllı: sosial qayğılara diqqət daha da artırılacaq






**Ölkədə aparılan sosial quruculuq, tikinti, abadlıq işlərində, iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdə İsmayıllı rayonu da ön sıralarda gedir. 2016-cı ilin yekunlarına, 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunan icra hakimiyyətinin geniş tərkibli şura iclasında hesabat məruzəsi ilə çıxış edən icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bu məsələləri konkret faktlarla təhlil etdi. Rayonun sosial-iqtisadi mənzərəsi barədə ümumi məlumat verən məruzəçi ayrı-ayrı sahələrdən geniş və ətraflı danışdı. Əhalinin pensiya təminatından, məşğulluq səviyyəsindən söhbət açarkən dedi:**

- İsmayıllı Dövlət Sosial Müdafiə Fondunun uçot qeydiyyatında olan pensiyaçılar 13227 nəfərdir. İl ərzində 304 nəfərə yaşa görə, 154 nəfərə əlilliyə görə, 51 nəfərə ailə başçısını itirdiyinə görə pensiya təyin edilmişdir. 2016-cı il ərzində əmək pensiyalarının ödənilməsinə 27 milyon 98 min manat, digər müavinətlərin ödənilməsinə isə 421 min 400 manat vəsait xərclənmişdir. Hesabat dövründə Rayon Məşğulluq Mərkəzinə 2241 nəfər vətəndaş müraciət etmiş, 654 nəfəri işlə təmin edilmişdir. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 258 nəfər çoxdur. İşlə təmin olunanların 84 nəfəri qadın, 319 nəfəri gənc, 25 nəfəri işə qaçqın və məcburi köçkünlərdir.

Yığıncaqda aqrar sahədəki vəziyyətdən də ətraflı danışıldı. Qeyd olundu ki, rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahə iki mühüm istiqamətdə — bitkiçilik və heyvandarlıq sahələri üzrə inkişaf etdirilir. Taxılçı fermerlər 29886 hektar sahədən 102303 ton məhsul götürmüş, hər hektardan 34,2 sentner məhsuldarlıq əldə etmişlər.

Rayon fermerləri 2015-ci illə müqayisədə 2016-cı ildə 2880 ton artıq kartof və 180 ton artıq tərəvəz məhsulları istehsalına nail ola bilmişlər.

2012-2016-cı illərdə 300 hektar sahədə süfrə sortlarından ibarət yeni üzüm bağları salınmışdır. Bar verən 888.2 hektar üzüm bağından hesabat ilində 2120.8 ton məhsul toplanmışdır.

Rayonda kənd təsərrüfatı təyinatlı torpaqların su təminatının yaxşılaşdırılması üçün rayonun Xəlilli, Külüllü, Mollaisaqlı, Hapıtlı, Qalagah, Topçu və Qalınçaq kəndlərində yeni artezian quyuları qazılmışdır.

Keçən tədris ilində rayonun ümumtəhsil məktəblərini 885 nəfər bitirmiş, onlardan 480 nəfəri ali məktəblərə tələbə qəbulunda iştirak etmiş, 300 nəfərdən çox məzun tələbə adını qazanmışdır. Onlardan bir nəfəri 700 bal, 28 nəfəri 600-dən yuxarı, 46 nəfəri isə 500-600 arasında bal toplamışdır. Son illərdə 10 nəfər məzunumuz Prezident təqaüdünə layiq görülmüşdür.

2016-cı il ərzində Rayon Gənclər İdman İdarəsi tərəfindən 63 tədbir keçirilmişdir. Onlardan 8-i respublika, 4-ü region, 51-i rayon miqyaslı tədbirlər olmuşdur. İdman sahəsi üzrə 134 tədbir keçirilmişdir ki, onlardan 17-si respublika, 6-sı beynəlxalq, 111-i isə rayon miqyaslı tədbirlər olmuşdur. İdmançılarımız regional, respublika və beynəlxalq turnirlərdə müvəffəqiyyətlə çıxış etmişlər.

2017-ci ilin vəzifələrindən söhbət açarkən məruzəçi aşağıdakıları demişdir:

2017-ci ildə Lahıc qəsəbəsinin, Qalagah, Soltankənd və Uştal kəndlərinin qazlaşdırılması nəzərdə tutulmuşdur. Qarşıdakı illərdə 33 iri yaşayış məntəqəsinin qazlaşdırılması əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan uğurlu addımlardan olacaqdır.

Əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təmin olunması qarşıda duran vacib məsələlərdəndir. 2017-ci ildə Quşençə və Qarakolluq kəndlərinə “Azərsu” ASC tərəfindən layihələşdirilən su xəttlərinin və Kürdmaşı kəndinin su xəttinin tikintisi aparılacaqdır. Başqa kəndlərə də yaxın gələcəkdə yaxınlıqdakı mənbələrdən su xətlərinin çəkilməsi və ya sub-artezian quyularının qazılması nəzərdə tutulmuşdur.

Qədim tarixə malik, gəlirli məşğulluq növlərindən olan baramaçılıq da rayonumuz üçün ənənəvi sahələrdəndir. Bu il 120 qutu barama qurdunun gətirilərək kümçülərə paylanması nəzərdə tutulmuşdur.

Rayonun Qalınçaq, Topçu, Diyallı, Tircan, Quşençə kəndlərində və İsmayıllı şəhəri ərazisində 50 hektar sahədə intensiv meyvə bağlarının salınması planlaşdırılmışdır.

Yığıncaqda Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Rüfət Məmmədov, millət vəkilləri Novruzəli Aslanov, Tahir Kərimli çıxış etdilər.

Yığıncağın sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olundu.

**Rasim AMANOV,**
**“Respublika”.**